# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# S Ə R Ə N C A M

**“Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 fevral tarixli 132s nömrəli Sərəncamından irəli gələn məsələlərin həll edilməsi haqqında**

“Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 fevral tarixli 132s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə:

1. “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun (bundan sonra – Qoruq) sərhədləri və mühafizə zonası, Qoruğun ərazisinin xüsusi rejimi ilə bağlı təkliflərin hazırlanması üçün komissiya yaradılsın və onun tərkibi təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi:

2.1. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Komissiyanın işini nəzarətdə saxlasın və Qoruğun sərhədləri və mühafizə zonası, Qoruğun ərazisinin xüsusi rejiminə dair qərar layihələrinin aidiyyəti sənədlərlə birlikdə bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsin;

2.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə Qoruğun fəaliyyətinin təmin edilməsi və maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər görsün.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “ 13 ” mart 2024-cü il

№ 20s

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il __ mart tarixli __ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

**“Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonası, Qoruğun ərazisinin xüsusi rejimi ilə bağlı təkliflərin hazırlanması üzrə**

**KOMİSSİYANIN TƏRKİBİ**

**Komissiyanın sədri:**

| | |
|---|---|
| Həsən Seyidov | Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Fərqanə Hüseynli | Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| Vəli Baxşəliyev | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini |
| Gülbuta Babayeva | Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Aparatının Mədəniyyət və mədəni irs şöbəsinin müdiri |
| Reyhanə Əsgərova | Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının Qanunvericilik bölməsinin rəisi |

| | |
|---|---|
| İntizar Həziyev | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Torpaqların dövlət idarəetməsinin və torpaq bazarının təşkili sektorunun müdiri |
| Pərviz Zamanlı | Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi Aparatının Büdcə şöbəsinin Sosial sahələrin maliyyəsi sektorunun baş məsləhətçisi |